ədalət.- 2021.- 18 fevral.- S.8.

***Sabir Samir Nemətzadə***



## *Dadanmışlar*

*" Dadanmış qudurmuşdan betərdir".*

*Milix Yevdayev*
*Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri*

**Zülmün artıq ərşə çatmış,**
**Zülmün yerdə qalmır daha.**
**Artıq dünya ermənini,**
**Heç vecinə almır daha.**

**Haqq - ədalət bizimlədir,**
**Yolumuza zəfər dolur.**
**Bir məsəl də var: "Dadanmış**
**Qudurmuşdan betər olur.**

**Türkün gücü, hünəri var,**
**Yəhudinin şücaəti.**
**Bu üç qardaş əlbir olub,**
**Çıxaracaq  həqiqəti.**

**Qonşu edib ermənini,**
**Yazıq bilib bağ, ev verdik.**
**İyrənc idi mətbəxləri,**
**Dolma, plov, kabab verdik.**

**Daha yetər, budur sözüm:**
**Çıxıb gedin torpağımdan!**
**Dadanmışa, qudurmuşa**
**Şanlı ordum verməz aman!**

## *Yeni tarix*

**Budur, yenə yazılıbdır tariximdən şanlı kitab,**
**Kim oxusa tapacaqdır hər suala doğru cavab.**
**Elə-belə vərəqləmə kitabdakı fəsilləri,**
**Hər fəsildə xəbər verir yada salıb nəsilləri.**

**Ta keçmişdən üzü bəri əcdadımı duyduqca mən,**
**Deyirəm ki, yaşa, yarat, Azərbaycan - ana Vətən!**
**Bəzən hücum etdi bizə yağı düşmən ac qurd kimi,**
**Başımızın aldı üsdün gəda-güda bulud kimi.**

**Hələ varıq, olacayıq, dayanmışıq bir dağ kimi,**
**Qarabağda gül-çiçək də dalğalanır bayraq kimi,**
**Yeni kitab, yeni fəsil - tarix yazır ana Vətən.**
**Dönə - dönə, sətir-sətir oxuyuram tarixi mən,**

**Uca Allah, xeyir gətir vətənimə səhərləri,**
**Zəfərlərlə qarşılansın ordumuzun əsgərləri.**
**Millətimiz, dövlətimiz yeni xoşbəxt tarix yazır,**
**Əsgərimiz, zabitimiz səngərində durub hazır.**

**Gerçək edib qəlbimdəki arzuları, nağılları,**
**Öz sözünü deyə bilir Azərbaycan oğulları.**
**Mərd- mərdanə şənlik edir salamlayır hər səhəri,**
**44 günlük qələbədən zəfərliyik üzü bəri.**
**Düşmən artıq gücümüzü yada salsın, hər an ansın,**
**Bayrağımız qoy əbədi Qarabağda dalğalansın!**